Sumqayıt Şəhər Mədəniyyət və Turizm İdarəsi
S.Vurğun adına mərkəzi kitabxana

Məişət zorakılığına son

Tövsiyyə ədəbiyyat siyahısı

Sumqayıt - 2011

Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır.

H.Əliyev.

Bu gün insan hüquqları mövzusu Azərbaycanda çox problemli bir sahədir. Cəmiyyətimiz hüquqların müdafiəsinin təşkilindən çox hüquqi maarifləndirməyə ehtiyacın olduğu bir dönəmi yaşayır. Məişət zorakılığı, qadınların hüquqlarının pozulması, gender bərabərsizliyi kimi ifadələr son zamanlar sosial həyatımızda çox işlənir. Bazar iqtisadiyyatının formalaşması, sovet sistemindən uzaqlaşma cəmiyyətdə ailədaxili münasibətləri, gender bərabərsizliyini çoxaltdı. Qadınlara qarşı, ümumiyyətlə ailədaxili zorakılıq bu gün bütün dünyada mövcuddur. Bütün zamanlarda qadınlar fiziki, psixoloji, iqtisadi, seksual, hüquqi zorakılığa məruz qalmışlar. Amma qadınlara qarşı zorakılıq hallarının əsasən ailədə baş verməsi faktı daha təhlükəlidir. Statıstıkaya görə bütün dünyada qadınların 60 faizi öz ailələri tərəfindən zorakılığa məruz qalırlar. Amma yəqin ki, Azərbaycanda heç bir zaman ailədə zorakılığın real maştabı tam aydın olmayacaq. Tədqiqatlar göstərir ki, ailədaxili zorakılıqların 22 faizi valideyn-övlad arasında baş verir. Məsələn, bir valideynin qız övladını oxumağa buraxmaması da öz növbəsində zorakılığın bir forması olaraq fərdin hüquqlarının pozulmasıdır. Belə ki, Dünya İqtisadi Forumunun 2009-cu il üçün hazırladığı statistik göstəricilərə görə Azərbaycan qadınların siyasi hakimiyyətdə təmsilçiliyi baxımından 134 ölkədən 119-cu, iqtisadi fəallığa görə 32-ci, qadınların vəzifə tutmaq imkanlarına görə 118-ci yerdədir. Bu da öz növbəsində qadınların hüquqlarının pozulmasıdır. Hər il 4 minə yaxın qadın evdə ağır şəkildə döyülür, 1000-ə yaxın qadın isə hər gün zərbələrə tuş gəlir. Qadınların 28%-i ərləri tərəfindən

mütəmadi olaraq döyülür. Ölkədəki ailələrin 40%-də isə ər heç olmasa bir dəfə arvadını döyüb. Təəssüf ki, Azərbaycanda qadınların döyülməsi ilə bağlı kişilərin 52%-i hesab edir ki, «qadın döyülürsə, deməli, buna layiq nəsə edib». Qadınların 24%-i də bu yaramaz düşüncəni paylaşır. Yeniyetmə qızların 17%-i mütəmadi depressiyalara mübtəla olur. Həmin qızların 3%-i nə zamansa intihar edə biləcəyini istisna etməyib. Tədqiqatlar onu da göstərir ki, hər 6 azərbaycanlı qadından biri əri tərəfindən döyülür. Döyülən qadınların 45%-i ərinin «hücum»larına məruz qaldığı vaxt ya hamilə, ya da azyaşlı uşaq anası olub. Qadınların 90% ya öz valideynlərinin, ya da qohumlarının arasında yaşanan «ailə haqq-hesab»larının şahidi olublar. Azərbaycanlı qadınların 36%-i onlara nə zamansa əl qaldırmış ərlərinə bu və digər formada haqq qazandırırlar. KIV-də toplanan informasiyaları tədqiq edərkən belə qənaətə gəlmək olar ki, məişət zəminində baş verən münaqişələrin 36,5 %-i (31 fakt) sosial problemlərin təsirindəndir. Məişət zəminində baş verən cinayətlərin 60%-i uşaq və yeniyetmələrin gözü qarşısında törədilir. Bu isə sonradan uşaqların fiziki və psixi inkişafına mənfi təsir göstərir. Onu da qeyd edək ki, ailədə zorakılıq cinayətlərinin analizi göstərir ki, cinayətkarların 68,5%-i zorakılığın hökm sürdüyü ailələrdə böyümüşlər. Fiziki zorakılıqla üzləşən qadınların 20 %-i ümumiyyətlə bu barədə heç bir zaman heç kəsə danışmır, məlumat vermirlər. Aldıqları xəsarətlərin nəticələrinə baxmayaraq qadınların çox az bir qismi rəsmi surətdə səhiyyə, polis orqanlarına və ya fərdi surətdə səlahiyyətli şəxslərə, dostlarına və ailə üzvlərinə yardım üçün müraciət edirlər.Ailədaxili zorakılıq dedikdə qadına öz əri, valideyni, qardaş-bacısı, övladları, yaxın qohumları, məsələn, qayını, baldızı və b. tərəfindən edilən hücumlar nəzərdə tutulur. Qısqanclıq və məişət zəminində ortaya çıxan bu növ zorakılıq hallarında hücumçu tərəf kimi daha çox ərlər və ailə üzvləri fərqlənirlər. Qohumların və övladların qadınlara

qarşı zorakılığı əvvəlkilərə nisbətən azlıq təşkil edir.Qeyd edilən faktlar Azərbaycan ailəsində törədilən zorakılıq hallarının cəmiyyətdə baş verən zorakılıq hallarından heç də az təhlükəli olmadığını sübut edir.

Tarixən Azərbaycan qadını cəmiyyətin ağır yükünün bölüşməsində qeyrət və hünər göstərmişdir. Ötən əsrin sonunda xalqımız dövlət müstəqilliyi qaqzanandan sonra qadınların cəmiyyətdə rolu və fəallığı daha da artmışdır. Dünyada proseslərin sürətlə inkişaf etdiyi, qloballaşmanın əhatə dairəsinin genişləndiyi bir vaxtda qadınlarımızın üzərinə məsul vəzifələr düşür. Yeni cəmiyyətin sivil əsaslarla formalaşmasında, indiki nəsillərin tərbiyəsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasında və zənginləşməsində qadınların rolu müstəsna dərəcədə artmışdır.

Qadınlara dövlət səviyyəsində qayğı zamanın tələbi idi. Məhz bu baxımdan ümummilli lider Heydər Əliyevin qadın problemlərinin həllinə verdiyi yüksək önəm nəticəsində 1998-ci il yanvar 14-də Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi 10 il ərzində ulu öndərin yüksək etimadını doğrultmuş, mövcud problemlərin həlli iştiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamşısı Prezident İlham Əliyev dövlətin qadın siyasətini yeni səviyyəyə qaldıraraq komitənin statusunu genişləndirmiş, 2006-cı il 6 fevral tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

"Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Prezident fərmanı, "Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında " Qanun, "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması haqqında və davamlı inkişaf dövlət poqramı", "Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə respublika kompleks proqramı", "İnsan alverinə qarşı mübarizə üzrə milli fəaliyyət planı" kimi mühüm tarixi sənədlər qadınların

problemlərinin həllinə hüquqi-demokratik təminat yaratmışdır.

Bildiyimiz kimi, 2010-cu il 7 oktyabr tarixində "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Ümid edirik ki, Azərbaycanda bu problemin həllində həmin qanunun əhəmiyyətli rolu olacaq. Ümumilikdə, bu qanunun ruhu Azərbaycanın qanunçuluq məfkurəsi və fəlsəfəsi ilə uyğundur. Çünki söhbət insan haqlarının qorunmasından gedir.

Bu gün respublikamızda dövlət qadın siyasətinin başlıca məqsədlərdən biri Azərbaycan qadınlarının ictimai fəallığını yüksəltməkdən ibarətdir. Bununla əlaqədar respublikada mütəmadi olaraq qadınları öz hüquqları barədə məlumatlandırmaq məqsədilə hüquqi biliklərin yayılmasına yönəlmiş kampaniya aparılır, regionlarda qadın və kişilərin bərabər hüquqları , qadınların qərar qəbuletmədə fəal iştirakı, zorakılığa qarşı mübarizə kimi bu gün çox önəmli olan problemlərin həllinə yönəlmiş maarifləndirmə tədbirləri həyata keşirilir.

ƏZİZ OXUCU!

S.Vurğun adına Sumqayıt Şəhər Mərkəzi Kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi mövzunun aktuallığını nəzərə alaraq "Məişət zorakılığına son" adlı tövsiyə ədəbiyyat siyahısı tərtib etmişdir. Vəsait Mərkəzi Kitabxanada fəaliyyət göstərən "İctmai Hüququ İnfomasiya Mərkəzi"nin dəstəyi ilə hazırlanmışdır.

Vəsait 2 bölmədən ibarətdir. Birinci bölmədə bu mövzu haqında olan hüquqi sənədlər, ikinci bölmədə ümumi xarakterli materiallar əksini tapmışdır.

69 adda ədəbiyyatı özündə əks etdirən Tövsiyə ədəbiyyat siyahısı geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Hüquqi sənədlər:

1. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-2010.-7 oktyabr.-S.4.

2. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-2010.-18 iyul.-S.3.

3. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-2007.-27 noyabr.-S.2.

4. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-2006.-2 dekabr.-S.2.

5. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı //Azərbaycan.-2006.-7 fevral.-S.1.

6. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan

Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-2006.-24 yanvar.-S.2.

7. Azərbaycan Respublikasının ailə məcəlləsi //Azərbaycan.-2000.-31 mart.-S.2.

8. Azərbaycan Respublikasının ailə məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi məsələlər haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı //Azərbaycan.-2001.-10 iyul.-S.1.

9. Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı //Azərbaycan.-2000.-7 mart.-S.1.

10. Z.T.Quliyevanın Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı //Azərbaycan.-1999.-8 yanvar.-S.3.

11. Z.T.Quliyevanın Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı //Azərbaycan.-1998.-15 yanvar.-S.1.

12. Azərbaycanda qadınların rolunun artırılmasına dair Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı //Azərbaycan.-1998.-15 yanvar.-S.1.

13. Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında Azərbaycan Respublikasının Qanunu //Azərbaycan.-1996.-25 iyun.-S.1.

Ümumi xarakterli materiallar.

14. “Qadınlara qarşı zorakılığa” Yox! “İctimai vəkil- insan hüquqlarının müdafiəsi mərkəzi” ictimai birliyinin yenicə başladığı kampaniya belə adlanır //Hərbi and.-2010.-
24 noyabr.-S.7.

15. Əliyeva İ.. Qadına hörmət hər bir sağlam cəmiyyətdə tərəqqinin mühüm şərtlərindəndir //Azərbaycan.-2010.-
3 oktyabr.-S.7.

16. İnsan alverilə mübarizədə hər kəsin iştirakı vacibdir //Sumqayıt.- 2010.-31 iyul.-S.2.

17. Əliyeva İ.. Qadına hörmət hər bir sağlam cəmiyyətdə tərəqqinin mühüm şərtlərindəndir //Azərbaycan.-2010.-
3 oktyabr.-S.7.

18. Fərhadova A. Məişət zorakılığı //Ekspress.-2010.-
14 iyul.

19. Məmmədova Ş. Nikah və nikah müqaviləsinin bağlanması ər-arvad arasındakı mübahisələrin həlli üçün təminatdır //Azərbaycan.-2010.-10 iyul.-S.5.

20. Əliyeva N. Gender bərabərliyinin hərtərəfli təmini Azərbaycan dövlətinin başlıca məqsədlərindəndir //Azərbaycan.-2010.-5 iyun.-S.5.

21. Qədimova Y. Azərbaycanda qadın hüquq və azadlıqları təmin edilir //Respublika.-2010.-7 mart.-S.4.

22. Abdullayev N. Nikah müqaviləsi nikahın və ailənin qorunmasında mühüm vasitədir //Xalq qəzeti.-2010.-28 yanvar.-S.4.

23. Kazımova A. Nikah müqaviləsi ailə münasibətlərini tənzimləyir //Sumqayıt.-2009.-26 dekabr.-S.4.

24. Əliyeva İ. Sağlam gələcəyə aparan mənəvi körpü:(Ailə və nikah münasibətləri haqqında) //Azərbaycan.-2009.-2 dekabr.-S.6.

25. Cəbrayılov R. Ailə mübahisələrinin hüquqi tənzimlənməsi //Xalq qəzeti.-2009.-24 noyabr.-S.4.

26. Cəbrayılov R. Nikah müqaviləsi ailə mübahisələrinin hüquqi tənzimlənməsində vacib faktordur //Azərbaycan.-2009.-20 noyabr.-S.6.

27. Əhmədov T. Nikah hüquq münasibətləri: nəzəri və təcrübi məsələlər //Qanun.-2009.-№ 5.-S.145-151.

28. Aşurova M. Qadının cəmiyyətdə rolu nədir? //Hərbi and.-2009.-7 fevral.-S.13.

29. İsmayılova C. Nikah müqaviləsinin aktuallığı //Qanun.-2008.-№ 11.-S.109-113.

30. Sadıqova A. Qadın hərəkatı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur: Ölkədə həyata keçirilən uğurlu gender siyasəti Azərbaycan qadınının ictimai fəallığını və layiqli həyat tərzini təmin edir //Azərbaycan.-2008.-14 noyabr.-S.5.

31. Qəhrəmanova S. Ümummilli lider: Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır //Xalq qəzeti.-2008.- 25 sentyabr.-S.11.

32. Qocayeva A. Qadın hərəkatına, problemlərin həllinə xüsusi diqqət yetirilib //Xalq qəzeti.-2008.-24 sentyabr.-S.6.

33. Möhsümova V. Qadına qayğı və ehtiram cəmiyyəti yüksəldir //Xalq qəzeti.-2008.-5 sentyabr.-S.3.

34. Hacıyev H. Ailə və cəmiyyətdə qadın //Respublika.-2008.-7 mart.-S.5.

35. Heydərova H. Azərbaycan Respublikasının ailə qanunvericiliyi və onun səciyyəvi xüsusiyyətləri //Qanun.-2008.-№ 2.-S.30-33.

36. Əsgərov Ş. Gender probleminin görünən və görünməyən tərəfləri //Yeni Azərbaycan.-2007.-6 dekabr.-S.6.

37. Hüseynova H. Cəmiyyət üçbucağı- ailə, uşaq və qadın [Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri ilə müsahibə/Müsahibəni apardı:X.Göyallı] //Mədəniyyət.-2007.-11 may.-S.5-6.

38. Miri E. İslamda qadın-kişi bərabərliyi //Kaspi.-2007.-12 aprel.-S.14.; 19 aprel.-S.14.

39. Cərullaqızı N. Qadın: İslam dininə gender aspektindən nəzər //Mədəniyyət.-2007.-8 mart.-S.5.

40. Quliyeva A. Qadın hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq mexanizmlər //Qanun.-2006.-№ 11.-S.22-25.

41. Qəhrəmanova S. Ağıllı qadın cəmiyyətin xəzinəsidir: [Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini ilə müsahibə/Müsahibəni apardı: G.Qasımov] // İki sahil.-2006.-18 avqust.-S.5.

42. Aslanova R. Gender bərabərliyi, yoxsa qadınların müdafiəsi: [Millət vəkili ilə müsahibə/ Müsahibəni apardı: F.Sabirqızı] //Qanun.-2006.-№ 4.-S.18-21.

43. Haqverdiyev O. Azərbaycanda büdcə və gender problemləri //Mədəniyyət.-2006.-18 fevral.-S.10.

44. Qadın hüquqları //Mədəniyyət.-2006.-21 yanvar.-S.7.

45. Kazımovskaya P. Valideynlər və uşaqlar arasında hüquq və vəzifələrin əsasları //Dirçəliş XXI əsr.-2005.-dekabr.-2006.-yanvar.-№ 94-95.-S.187-195.

46. Əliyeva N. Gənc ailələr- onların yaranmasının əsas şərtləri və qayğıları //Qanun.-2005.-№ 11.-S.40-43.

47. Eyvazlı A. Gender problemlərinə dair bəzi mülahizələr //Mədəni-maarif.-2005.-№ 11.-S.22-23.

48. Tağıyeva X. Ər-arvadın ümumi birgə mülkiyyəti və vərəsəlik məsələləri //Qanun.-2005.-№ 6.-S.36-37.

49. Cəfərova Ş. Azərbaycan qadınının cəmiyyətdə yeri və rolu //Hərbi and.-2005.-10 aprel.-S.13.

50. Hüseynova İ. Azərbaycanda təhsil siyasəti və gender problemi //Dirçəliş XXI əsr.-2004.--№ 78-79.-S.145-151.

51. Əliyeva İ. Gender problemi və Azərbaycan //Respublika.-2003.-10 dekabr.-S.5.

52. Dəmirçiyeva M. Azərbaycanda nikah hüquq münasibətləri //Qanun.-2003.-№ 7.-S.55-57.

53. Mövsümova L. "Qadın məsələsi" :Tarix və müasirlik //Qanun.-2003.-№7.-S.27-31.

54. Həsənova M. Heydər Əliyev və Azərbaycanda gender siyasəti //Yeni Azərbaycan.-2003.-8 iyul.-S.6.

55. Mövsümova L Azərbaycan cəmiyyətində gender probleminin xüsusiyyətləri //Qanun.-2003.-№ 6.-S.24-29.

56. Behbudov Y. Aliment öhdəlikləri //Qanun.-2003.-№ 5.-S.38.

57. Abbasov Ə., Zeynalova M. Qadınlara qarşı zorakılıq probleminin gender təhlili //Qanun.-2003.-№ 5.-S.19-26.

58. Mirzəyeva S. Nikah müqaviləsi və onun məzmunu //Sumqayıt.-2003.-30 aprel.

59. Pirməmmədov N. Valideynlik hüquqlarından məhrum etmənin əsasları //Qanun.-2003.-№ 4.-S.42-43.

60. Hacıyeva S. Nikahın xitam olunmasının əsasları //Qanun.-2002.-№ 11.-S.17-18.

61. Zövzəliyev V. Azərbaycan Respublikasının yeni Ailə Məcəlləsinə əsasən nikahın bağlanmasının qayda və şərtləri //Qanun.-2002.-№ 6-7.-S.3-5.

62. Həsənli X. Azərbaycanda qadın haqları //Ülfət.-2002.-15 mart.-S.3.; 29 mart.-S.4.

63. Mehdiyev B. Nikah müqaviləsi nədir? //Məslək.-2001.-26 sentyabr.

64. Camalova D. Qadın problemləri daim dövlətin nəzarətindədir:[Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini ilə müsahibə/ Müsahibəni apardı:N.Rüstəmli] //Respublika.-2001.-3 iyun.-S.4.

65. Mustafayeva R. Gender axını:Gender bərabərliyi //Respublika.-2001.-1 may.-S.8.

66. Yusifov M. Azərbaycanda nikahın bağlanmasının və pozulmasının statistik təhlili //İqtisadiyyat və həyat.-2001.-№ 3.-S.28-31.

67. Əhmədzadə N. Ailənin hüquqi bünövrəsi //Azərbaycan.-2000.-22 aprel.-S.4.

68. Didavari R. "Qadın və hüquq " mövzusunda seminar: [BMT-nin Azərbaycandakı nümayəndəliyinin "Qadın və hüquq" mövzusunda keçirdiyi seminar haqqında] //Xalq qəzeti.-1998.-12 iyul.-S.2.

69. Əliyeva İ. Qadınlar dünyanın şöhrət tacıdır: [Qadın Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti haqqında] //Azərbaycan.-1998.-14 mart.

Internet saytlarında:

www.meclis.gov

az.trend.az

www.ayna.az

www.azadinform.az

www.presspost.az

www.president.az

deyerler.org

modern.az

www.icmal.az

www.osce.org